## İyulda doğulan şəhadətçi

# Zəhmət, halallıq qoxulu



Kəndi - doğulduğu oba da rayon mərkəzindən uzaq idi; evləri də kəndin mərkəzindən. Valideynləri də daima alın təri, əl zəhməti ilə qazanardı çörəyini. Özünü "tanıyandan" işə bağlılığı ilə, mehriban davranışı, ağıllı düşüncə tərzi ilə həmyaşıdlarından seçilərdi. Qəlbi arzular məskəni, gələcək fikir və düşüncələrisə çox. Təbiət qoynunu çox sevərdi, çünki körpəliyindən təbiətin əsrarəngiz gözəllikləri gözünü oxşayardı. Bu gözəlliklərdən - hər xırda detalından belə bir məna axtarar, yaşamağın gözəlliyini duyar, arzularının gerçəkliyini xəyal edər, çox sevdiyi anasının zəhməti, atasının halallığı ömrünün arzu "yelkənini" istiqamətləndirərdi. Onlara daim yaxın və "sağ əli" olan Elnur valideynlərinin ən yaxın "havadarı", köməkçisi, həm də qəlbi arzularla dolu olan bir yeniyetmə idi.

Məmməd Araz şeirlərinin birində yazdığı misralar sanki Elnurun arzu yolunu əks etdirmişdi:

***Nə qədər yol getdim fikirlər ilə,***
***Hələ mənzilimin uzağı qalıb.***
***Üfüqlər dalında nə qədər hələ,***
***Arzumun əlləri uzalı qalıb...***

Arzuları arzularından doğanlar öz arzularını tam mənada gerçəkləşdirə bilməzlər. Bəzən onların "arzu yelkəni" öz yolunu dəyişər... Axı yaşadıqca o yaşam yoluna uyğun arzular doğar insan qəlbində... Arzular da sanki təkmilləşər.

Məhz Elnurun arzuları kimi...

Elnur ailənin ikinci övladı idi. Ailədə 3 qardaş idilər. Özündən böyük qardaşı 16 yaşında dünyasını dəyişmişdi. Valideynləri nə qədər ərköyün böyütsə də, hər an onu diqqət mərkəzində saxlasa da, o, kənd uşağı, təbiət qoynunda böyüyən və öz daxilində qurduğu arzularının bir nağıl dəyil, gerçək olmasını qəlbində yaşayan idi.

Elnur 2000-ci ilin iyul ayının 25-də Mıxlıqovaq kəndində doğulmuşdu. Orta təhsilini də bu kənddə almışdı. Zəhmətdən yoğrulmuş biri idi. Orta məktəbi bitirdikdən sonra da valideynlərinə kömək etmək, onlardan uzaqda yaşamamaq istəyi ilə təsərrüfat işlərində çalışdı. 2018-ci ildə həqiqi hərbi xidmətə çağırıldı. Əsgəri xidmət dövründə qulluq etdiyi hərbi hissənin nümunəvi əsgəri olmuşdu və onda hərb sənətinə maraq çoxalmışdı.

Əsgəri xidmət vaxtını Beyləqan rayonunun "N" saylı hərbi hissəsində başa vurduqdan sonra hərbi hissədə işləmək arzusunu atasına bildirdi. Atası Məmmədkərim Rəhimov onun vətənpərvər biri olduğunu, torpaqlarımızın düşmən tapdağından azad olunması arzusunun ta uşaqlıqdan qəlbində yer tutduğunu bildiyi üçün ona üzülmədi.

Elnurun oxuduğu məktəb I Qarabağ müharibəsinin şəhidi F. Həmidovun adını daşıyırdı. O, Fövzi kimi qəhrəmanının narahat ruhunu həmişə düşünərdi. O, xalqının öz ocağından qovularaq öz vətənində qaçqın kimi yaşamasını "qəbul" edə bilmirdi. Elə buna görə də hərbçi olmaq, torpaqlarımızın azadlığı uğrunda mübarizə aparmaq istəyirdi. 2020-ci ilin iyul hadisələri, həmyerlimiz, general-mayor (ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilmişdir) Polad Həşimovun şəhid olması bu mübarizənin başlanması üçün bir qığılcım oldu.

Elnur Rəhimov 2020-ci ildən Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edirdi. 2020-ci ilin 20 sentyabrında Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın, Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. Elnur Rəhimov noyabrın 1-də Xocavənd döyüşləri zamanı şəhid olmuşdur.

Ailəsi onun itkin sorağıyla düz bir ay "yaşamış", hər gün "ölüb-dirilmişdi". Şəhidimiz dekabrın 1-də Qəbələ rayonunda dəfn olunmuşdur.

Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunması" medalları ilə təltif olunmuşdur.

20 yaşlı qəhrəmanımız qəlbi arzularla dolu həyata vida etdi. Bir ananın sevincini, bir atanın nikbinliyini də özü ilə bərabər torpağa gömdü. Ana özünə qapılaraq daxilən hər gün övladı ilə "danışar", onsuz yaşam dünyasının əzablarının ağırlığından, arzuları buruluğuna düşmüş oğul balasının cismən yoxluğunun acı yanğısından dünyanın işıq "selinin yox olduğunu" söyləydi. Həyat ana üçün bitmişdi sanki. Amma hər dəfə qapıda dalğalanan bayraq onu həyata, oğlunun əbədiyyən yaşamasına səsləyərək oğlunun arzularını gerçəkləşdirmək, yarım qalmış arzuları həyata keçirmək üçün yaşamağa səsləyirdi.

Elnur Rəhimovun yarım qalmış arzularını gerçəkləşdirmək üçün onun doğmaları həyatda mücadilə yolunu seçmiş, onun ruhunun şad olması üçün çalışırlar.

O ananın simasına qonmuşdu şəhid balasının arzuları... çilik-çilik... O atanın qəddinə bürünmüşdü şəhidlik, baxışlarında dolaşırdı hər an... qəm-qüssə avazlı... qürur, baş ucalığı gətirsə belə, şan-şöhrətə bürüsə belə hər bir qəhrəmanın ölümü daha acılı. Çünki qəhrəmanın ölümü adi ölüm deyil. Vətən, torpaq, xalqının gələcək salnaməsini yazan, tarixin xronologiyasına "qızıl" söz həkk edərək qəhrəmanlıq simvolunu yeniləşdirən oğulların ölümü də daha acı... Yaşasaydı arzuları çin ola-ola bu igidlər vətən üçün xariqələr yaradardı. Ancaq şəhid adı ən böyük xariqə, ən ali ad, zirvənin pik nöqtəsi. Bu ad bütün halallıqların, sevgilərin, igidliklərin, saflığın, vüqarın, qürurun, ən əsası, ən ucası... elə dərdlərin də ən acısı... heç zaman dəyişməyən bahar ömürlü, çox zaman əksəriyyət qəhrəmanlarda olduğu kimi, sabaha yadigar bir övladı yox... Yalnız bir ad onları təmsil edir: qəhrəman şəhidimiz!.. Bu ad insanlığın ən ali adıdır.

Məkanın cənnət olsun, şəhidim.

**BİBİXANIM.**

# İnformasiya müharibəsində önəmli amil

Azərbaycan mədəniyyətinin paytaxtı Şuşa şəhəri növbəti dəfə mötəbər beynəlxalq tədbirə - "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumuna evsahibliyi etdi və öz əzəmətini, kimliyini, mənliyini dünyaya göstərdi. Fəxarətlə deyə bilərik ki, artıq Şuşa dünyada həm də beynəlxalq tədbirlərin keçirildiyi, qlobal xarakterli müzakirələrin aparıldığı məkan kimi tanınır. Foruma 49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun qatılması tədbirin əhəmiyyətinin və ona olan marağın təzahürüdür. Bu həm də həqiqətin, reallıqların beynəlxalq ictimaiyyətə çatdırılması baxımdan xeyli önəmli hadisədir. Belə ki, işğaldan azad edilmiş Şərqi Zəngəzura və Qarabağa gələn xarici media nümayəndələri uzun illər ermənilərin orada törətdiyi bütün vəhşilikləri, dağıdılmış şəhərləri, kəndləri öz gözləri ilə görür, real vəziyyəti dəqiq və dürüst şəkildə dünyaya çatdırırlar. Bu da, sözsüz ki, ermənilərin və onun havadarlarının bütün yalanlarını, bölgə ilə bağlı dezinformasiyalarını alt-üst edir.

Dövlətimizin başçısı cənab İlham Əliyevin Forumun açılış mərasimində iştirak etməsi, yerli və xarici jurnalistlərin suallarını cavablandırması bir daha göstərdi ki, o, hər zaman mətbuata açıqdır, bu sahənin inkişafına hərtərəfli dəstək olur. Əbəs yerə deyil ki, bu gün Azərbaycan mətbuatı hərtərəfli inkişaf edib, ölkəmizdə 5 mindən çox media subyekti fəaliyyət göstərir. KİV-lərə birdəfəlik yardımların verilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər, həmçinin media mənsublarına fəxri adların verilməsi haqqında sərəncamlar mətbuata və mətbuat işçilərinə göstərilən qayğının bir hissəsidir. Eləcə də jurnalistlərin mənzillə təmin olunması, qəzet və jurnalların nəşriyyata olan borclarının silinməsi ölkəmizdə mətbuata olan dəstəyin bariz nümunələridir.

Jurnalistlərin müxtəlif məzmunlu suallarına özünün dərin biliyi, geniş zəkası, dəmir məntiqi və tutarlı arqumentləri ilə cavab verən Prezident İlham Əliyev istər bölgədə, istər regionda, istərsə də dünyada baş verən prosesləri hərtərəfli şərh etdi, Azərbaycanın dünyada yerini və rolunu göstərdi və əhəmiyyətini anlatdı. Sübut etdi ki, ölkəmiz dünya üçün son dərəcə vacib ölkə və etibarlı tərəfdaşdır, həmçinin sülh və sabitliyin tərəfdarıdır. Təbii ki, ölkəmiz bütün bu uğurlara Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində imza atıb. O, ölkəmizin dayanıqlı iqtisadi inkişafını təmin etdi, səmərəli layihələr həyata keçirdi, Azərbaycanı regionun lider dövlətinə çevirdi. Məhz onun rəhbərliyi ilə yenilməz Ordumuz 30 illik işğala son qoyaraq xalqımızı məğlubiyyət girdabından qurtardı, ərazi bütövlüyümüz və suverenliyimiz təmin olundu. Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan layihələrin önəmi bu gün daha aydın görünür və Avropanın üzləşdiyi enerji böhranında xilaskar rolunu oynayır. Həmçinin Qoşulmama Hərəkatının sədri olaraq cənab İlham Əliyevin gördüyü işlər, sərgilədiyi ədalətli mövqe beynəlxalq ictimaiyyətin gözündə onu lider şəxsiyyətə çevirib. Odur ki, dövlətimizin başçısı istənilən mövzulu regional və beynəlxalq təşkilatların tədbirlərinə dəvət olunur, rəy və təklifləri alınır, əsasən dünyanın gələcəyi ilə bağlı çıxışları və irəli sürdüyü təşəbbüsləri maraqla qarşılanır. Prezidentimizin Şuşa Qlobal Media Forumunda iştirakı da dünya mediasının diqqət mərkəzindədir, çıxışının əsas məqamları ilə bağlı yazılar dərc olunur, qiymətli fikirləri təhlil edilir.

Şuşa Qlobal Media Forumunda rəqəmsal dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, müasir informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, yeni mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və feyk nyusla mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələlərlə bağlı aparılan müzakirələr, irəli sürülən təkliflər və gələnən qənaət dünya mediasının inkişafına mühüm töhfələr verəcək.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**

# Milli mətbuatın yeni yaşı

Artıq Azərbaycan milli mətbuatımızın yaranmasından 148 il keçir. 1875-ci ilin iyul ayının 22-də ana dilində "Əkinçi" qəzetinin nəşrə başlanması ilə milli mətbuatımızın yaranması günü kimi tarixə düşdü. Qəzet görkəmli maarifçi, təbiətşünas alim, publisist, mütəfəkkir Həsən bəy Zərdabi tərəfindən böyük əzab-əziyyətdən sonra çap olunmuşdur. "Əkinçi" qəzeti ilə böyük mütəfəkkir xalqımızın "oyanışında" yeni səhifə açdı.




1875-ci ilin 22 iyul tarixindən 1877-ci ilin 29 sentyabr tarixinə qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300-400 tirajla nəşr edilib. Bu müddət ərzində qəzetin 56 nömrəsi işıq üzü görüb. "Əkinçi" qəzetində dövrün görkəmli alim və ziyalılarının- Nəcəf bəy Vəzirovun, Moskvadan Əsgər Ağa Goraninin, Şamaxıdan Məmmədtağı Şirvaninin, Dərbənddən Heydərinin göndərdiyi məktublar, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundovun "Vəkili-naməlumu millət" imzası ilə məqalələri çap olunurdu.

Milli mətbuatımız "Əkinçi" ilə başlanan maarifçilik, yeniləşmə, çağdaş mədəni təfəkkür xəttini davam etdirərək xalqımızın milli özünüdərkində, milli oyanış prosesində müstəsna rol oynayıb. Zərdabi və onunla birgə bu qəzetdə fəaliyyət göstərən maarifpərvər yazarlar xalqı cəhalət və qəflət yuxusundan oyatmağa çalışırdılar. Çarizmin diktəsi ilə bəzi "üzdəniraq" ziyalılar "Əkinçi"ni hər vəchlə sıxışdırır, çapını dayandırmağa çalışırdılar.

1877-ci il sentyabrın 29-da "Əkinçi" öz nəşrini dayandırmağa məcbur oldu.

"Əkinçi"-dən sonra onun yolunu "Ziya", "Kəşkül", "Kaspi" və digər qəzetlər davam etdirdi.

"Əkinçi" qəzeti bağlandıqdan sonra da Zərdabi öz fəaliyyətini davam etdirdi və 1901-ci ildə ilk dəfə "Türk nəğmələri məcmuəsi"-ni nəşr etdirərək zəngin, mənəvi xəzinəmizin qoruyub saxlanılmasına töhfələrini verdi.

Bu gün kütləvi informasiya vasitələrinin başlıca vəzifəsi cəmiyyəti onu maraqlandıran məsələlər barədə məlumatlandırmaq, zəruri informasiyalarla təmin etməkdir. Söz və mətbuat, cəmiyyətin və dövlətin demokratik inkişaf göstəricisi kimi qəbul olunur. Kütləvi informasiya vasitələri, qəzetlər, jurnallar, teleradiolar, informasiya agentlikləri və s. Cəmiyyətdə ictimai fikri və sosial fəallığı formalaşdırmaqla yanaşı, həm də onları istiqamətləndirir.

Həsən bəy Zərdabinin yaratdığı və redaktoru olduğu "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan jurnalistikası ötən 148 ildə müxtəlif dövrlərdə ağır sınaqlara məruz qalsa da hər çətinliyə dözmüş və tutduğu şərəfli yoldan dönməmişdir.

Ulu öndərimiz tərəfindən mətbuatın inkişafına həmişə dövlət qayğısı göstərilmişdir. Bu gün də möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən də bu qayğı davam etdirilir. Azərbaycan jurnalistikasında söz, fikir azadlığının yaradılmasını, demokratiyanın inkişafını özündə əks etdirən bi siyasət nəticəsində Azərbaycan dünyada sözə, insan hüquqlarına hörmət edən bir ölkə kimi tanınır.

**"Qəbələ"**